Tarix və onun problemləri, №4 2009

**RƏNA İBRAHİMOVA**
*Bakı Dövlət Universitetinin baş müəllimi*

# AZƏRBAYCAN ETNOQRAFİYASININ XV ƏSR MƏNBƏŞÜNASLIĞI

Böyük coğrafi kəşflər dövrü XV əsrdən başlayaraq bəşər tarixini yeni torpaqlar, xalqlar, mədəniyyətlər haqqında məlumatlarla zənginləşdirir. Ticarət əlaqələri genişlənir, xüsusilə Şərq ölkələrinə doğru, yeni karvan yolları salınır, dəniz ticarəti canlanır. Saysız-hesabsız sərvətlər, ədviyyatlar diyarı sayılan Hindistan avropalıları xüsusilə maraqlandırırdı. Qərbi Avropa feodallarının ədviyyatlar, «indiqo» təbii boya, kimi məhsullara böyük tələbatı var idi. 1443-cü ildə Roma papası VI Aleksandr Azor adalarından qərbdə yerləşən torpaqları ispanların, şərqdəki torpaqların isə portuqalların ixtiyarına verilməsini «bulla»larında bəyan etmişdi. Portuqallar Hindistana dəniz yolunun Afrika qitəsinin o tayında axtarmağa başlamışdılar. 1497-ci ilin iyul ayında Vasko de Qamanın gəmiləri açıq dənizə çıxır, 1498-ci ildə isə Hindistanın Kəlkut şəhərinin limanına yan alırlar. Hindistana dəniz yolunun kəşfi Vasko de Qamanın adı ilə bağlı olsa da, ondan 30 il öncə rus taciri Afanasii Nikitin dəniz yolu ilə Hindistana səfər etmişdi. Uzaq səfərə çıxan tacirlərə əksər hallarda səfir vəzifəsini yerinə yetirmək həvalə olunurdu. Yaxud, səfirə xarici ticarətlə bağlı məsələlərin həll olunması tapşırığı verilirdi. Bu qayda Moskva knyazları ilə Şərq ölkələri arasındakı ticarət və diplomatik əlaqələrində daha çox müşahidə olunur. Ticarət adamları uğurlu səfəri təmin etmək üçün yolları yaxşı öyrənir, keçdikləri ölkələrin coğrafi mövqeyi, iqlimi, canlı və bitki aləmi, əhalinin etnik tərkibi, dini mənsubiyyəti, təsərrüfat məişəti, adət-ənənələri, mədəniyyəti ilə yaxından maraqlanırdılar. Etnoqrafiya elmi üçün dəyərli olan bu məlumatlar tacirlərin gündəliklərində, qeydlərində öz əksini tapmışdı və Azərbaycan etnoqrafiyasının mənbələri kimi tədqiq olunur. Bu baxımdan Tver şəhərində anadan olmuş Afanası Nikitinin məlumatları böyük əhəmiyyət kəsb edir. O, 1466-cı ildən 1472-ci ilə qədər davam etmiş uzun, maraqlı, təhlükələrlə dolu səyahətini yazılarında böyük ustalıqla təsvir və təhlil etmişdi. Onu qeyd etmək lazımdır ki, Afanasii Nikitinin yazılarının məzmunundan aydın olur ki, o, böyük rus knyazı III İvanın xüsusi tapşırığını yerinə yetirərək keçdiyi dövlətlərin sərhədləri, istehkam tikililəri, nizamlı ordusu, əhalinin dövlətə ödədiyi vergilər, əhalinin sosial mənsubiyyəti, dövlətlərin daxili və xarici siyasəti, xammal ehtiyatı və digər mühüm məsələlər haqda mümkün olduğu qədər məlumat toplamışdı. Bü ilk növbədə III İvanın yeritdiyi siyasətin tələblərindən irəli gəlirdi. XV əsrin ortalarında rus knyazlıqlarının iqtisadi inkişafı, ayrı-ayrı vilayətlərinin siyasi birləşməsi prosesi mərkəzləşdirilmiş, vahid Rus dövlətinin meydana gəlməsi ilə nəticələnir. Moskva şəhəri dövlətin siyasi, iqtisadi, mədəni mərkəzi kimi ucalır. III İvanın hakimiyyəti illərində ordu möhkəmləndirilir, elmə, ticarətə diqqət yetirilir, dövlətlərarası diplomatik əlaqələr inkişaf edir. Xarici səfirliklərin nümayəndələri mütamadi olaraq böyük knyazın sarayına təşlif buyurur və burada böyük hörmətlə qarşılanırdılar. Rus dövlətinin yeritdiyi iqtisadi siyasət əsasən şərq ölkələri ilə ticarət əlaqələrinin canlandırılması, yeni ticarət yollarının əldə olunmasına yönəldilmişdi. Tacirləri, onların apardıqları malları yollarda quldurlardan qorumaq, ticarət adamlarının təhlükəsizliyi və rahatlığını təmin etmək üçün dövlətlərarası sazişlər bağlanırdı. Bu rəsmi sənədlər tacirlərə başqa dövlətlərdə rüsum ödəmədən ticarət etməyə imkan verirdi, o cümlədən dövlət məmurları tacirlərin ölkələrindən gətirdikləri və oraya apardıqları malların çeşidinə nəzarət etməliydi.

III İvan rus tacirlərinə imtiyazlar bəxş edərək, onları kömrük və məhkəmə rüsumlarından azad etmişdi. XIV-XV əsrlərdə Moskva, Ryazan, Tver ticarət adamları Volqa

çayı su yolu ilə şimal torpaqlarla şərq ölkələri arasında tranzit mərkəzi sayılan Həştərxana gəlir, burada çəltik, duz, ipək parçalar alırdılar. Şərq tacirləri isə Həştərxan bazarlarına qiymətli xəzlər, at yəhərləri, aşılanmış qaramal gönlərini almağa gəlirdilər. Həştərxandan ticarət yolları Dərbənd, Şamaxı, Təbriz, oradan Orta Asiya, Hindistan və Çinə gedirdi. Vacib ticarət yolları üzərində durmuş Dərbənd, Bakı, Şamaxı şəhərləri rus tacirlərinin daima gəlib-getdikləri ticarət mərkəzləri idi. Şirvanşahlara məxsus olan bu şəhərlərdən ən çox şöhrət qazanmış Şamaxı idi, XV əsrdə Şirvanşahlar dövləti müstəqil, varlı dövlət olmuşdur. İpək parçalar, xamna-ipək, neft, nəfis xalçaların ixracı dövlət xəzinəsinə böyük gəlir gətirirdi. Dövlətin paytaxtı Şamaxı həm də beynəlxalq ipək ticarəti mərkəzlərindən biri olmuşdu.(2, s 307) İl ərzində burada təxminən 20 min tay xamna satılırdı. Bunu XV əsrin avropa məlumatçılarından biri olan Klavixo qeyd etmişdi. «Şamaxıda ipək lap çox istehsal olunur. Ora hətta ipək almaq üçün Genuya və Venesiya tacirləri də gəlirlər».(3, s 178) Ticarəti canlandırmaq üçün yollar abadlaşdırılır, körpülər salınır, malları saxlamaq üçün ambarlarla təchiz olunmuş rahat karvansaraylar tikilir, yolboyu su mənbələri yaradılırdı. Şəhərdə təxminən 4-5 min ev var idi, əhalisinin sayı isə 20-25 minə çatırdı.(7, s 78) Ambroçço Kontarininin yazdığına görə, bu şəhər hər cəhətdən qat-qat Təbrizdən yaxşıdır. (5, s 111)

Rus tacirlərinin hələ XI əsrdə Şirvana səfər etdikləri məlumdur. Rus xalq mahnıları, dastanlarında dəfələrlə Şamaxı və Şirvandan gətirilmiş əşyaların adları çəkilir. (7, s 84) Avropa ölkələrindən fərqli olaraq rus tacirlərini əhalinin tələbatı olmadığından ədviyyat ticarəti o qədər də maraqlandırmırdı. Şərq bazarlarında onlar ipək parçalardan başqa qiymətli daşlar, zərgərlik məmulatları, məişət əşyaları alırdılar.

Şirvan hökmdarları XV əsrdə Moskva knyazlığı ilə artıq diplomatik münasibətlər qurmuşdular. 1465-ci ilin sonunda Şirvanşah Fərrux Yasərin elçisi Həsən-bəy III İvanın sarayına ticarət və diplomatik işləri qaydaya salmaq üçün göndərilir. O dövrdə Qərb və Şərq ölkələrində çarlar və əyyanların saraylarında ov quşları saxlamaq dəbdə idi. Bu quşları əsasən Peçora meşələrində rus ovçuları ovlayır və təlim edirdilər. Böyük qiymətə satılan ov quşlarını rus knyazları qonşu dost hökmdarlara bəxşiş göndərirdilər. Həsən bəyin səfirliyi vətənə geri dönəndə özləri ilə III İvandan Şirvanşaha hədiyyə olaraq 90 sonqar aparmışdı.(7, s 84) 1466-cı ildə Moskvadan Şirvana Vasili Papinin başçılığı ilə səfirlik Volqa çayı ilə yola düşür. Bu nümayəndəliyə Afanasii Nikitin və bir neçə moskva, ryazan tacirləri də qoşulur, Avanasi Nikitin öz zəmanəsinin savadlı, böyük müşahidəçilik qabiliyyətinə malik olan şəxs idi. Gündəliyin mətnindən aydın olur ki, o, ərəb, türk və fars dillərini yaxşı mənimsəmişdi. Belə ki, yazılarda dəfələrlə bu dillərdə ifadələrə, cümlələrə, dualara təsadüf olunur. Aşağı Novqorod şəhərində bu ticarət karvanı vətənə yolda olan səfir Həsən-bəyi kəmisi ilə rastlaşır və hər iki karvan birgə yollarına davam edir Yolda tatarların qarətinə məruz qalaraq tacirlər əmlaklarının böyük hissəsini itirirlər. Həsən-bəyin Şirvanşaha apardığı ov quşları da quldurların əlinə keçir. Gəmilər Dərbənd şəhərinin limanına yan alır. Buradan rus tacirləri Şamaxıya gəlirlər. Bəziləri vətənə dönmək üçün pul qazanmağa Şamaxıda qalırlar, digərləri Rusiyaya qayıdır. Afanasii Nikitin isə Bakıya yola düşür. Bakı haqda o belə yazmışdı; «... burada böyük ticarət gedir, sönməyən alov yanan yerdir.» Çox güman ki, o, Suraxanıda Atəşkah məbədini yaxud Abşeronda Yanar dağı görmüşdü. Səyyah Bakı və Şamaxının iqliminin yay aylarında çox isti olduğunu yazır. Afanasii Nikitin Xəzərin sahilindəki Çapakur şəhərinə gəlib çıxır, oradan Mazandarana, sonra Şimali İranın paytaxtı olmuş Rey şəhərinə gəlir. Burada o, islam tarixinin faciəli hadisəsi Həzrət Əlinin oğlu İmam Hüseynin 680-cı ildə Əməvi xəlifəsi Yezid ibn Müaviyənin (7, s 71) göstərişi ilə öldürüldüyü günün qeyd olunmasının şahidi olmuşdur. O, yazır ki, şəhərinin meydanlarında «şaxsey-vaxsey»-«Şah Hüseyn-vay Hüseyn» mərasimi keçirilirdi. (7, s 83) Hər il Məhər-

rəm ayında şiələr matəm saxlayır, meydanlarda tarixi hadisələri səhnələrdə canlandıraraq şəbih təşkil edirdilər. Küçələrdə dəstə tutub «şaxsey» gedirdilər. (4, s 29) Sonra Afanasii Nikitin Kaşan, Yezd, Lur və digər şəhərlərdə olmuşdur. Səyyah İran körfəzinin sahilindən gəmi ilə Hind okeanı ilə Hindistanın o dövrdə böyük liman şəhəri olmuş Kambayata gəlib çıxır. Hindistanda səyyah yerli əhalinin dini etiqadları haqda geniş məlumat verir. Burada islam dininin yayılmasını da qeyd edir. Maraqlıdır ki, Hindistanda yaşayan müsəlmanların məişətini təsvir edəndə, onların Qurban və Orucluq bayramlarının qeyd etdiklərini yazmışdır. Bəhmanilər dövlətinin paytaxtı Bidar şəhəri haqda məlumat verərək, o, şah qoşunlarının hərbi yürüşdən Qurban bayramında qayıtdıqlarını yazır. Sonra yazılardan məlum olur ki, Afanasii Nikitin Bidardakı müsəlmanlarla birgə oruc tutmuşdu, Orucluq bayramına bir qədər qalmış isə şəhəri tərk edib, vətənə yola düşmüşdü.

1472-ci ildə Afanasi Nikitin vətənə dönərkən Lur, Şiraz, İsfahan, Kaşan, Qum, Sultaniyyə, Təbriz şəhərlərindən keçərək Kiçik Asiya, Qara dəniz sahilləri, Krıma gəlmişdir.(7, s 121) Vətənə yoldakən Smolensk şəhərinin yaxınlığında vəfat edir. Onun gündəlikləri isə Moskvaya, xarici işlərlə məşğul olan «prikaza»-çatdırılır və mühüm dövlət sənədləri sırasına əlavə edilir. Gündəliyin mətni 1857-ci ildə «Üç dəniz arxasına səyahət» adlı kitab şəkilində çap olunur.

### *ƏDƏBİYYAT*

1.Belyayev Y.A. Müsəlman təriqətləri, Bakı, 1991, s 1-100
2.Əliyarov S.S. Azərbaycan tarixi Bakı, 1996, s 869
3.Əliyarlı S.S. Mahmudov Y.M.Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı, 1989, s 1-328
4.Kərimov Q. Şəriət və onun sosial mahiyyəti, Bakı, 1987, s 1-215
5.Mahmudov Y.M Səyyahlar Azərbaycana gəlir, Bakı, 1977, s 1-137
6.Водовозов Н. Афанасий Никитин, Хождение за три моря М., 1950 с 1-182
7.Осипов А.М. Афанасий Никитин и его время, М., 1956, с 1-214

**Р.М.ИБРАГИМОВА**

**ИЗУЧЕНИЕ ЭТНОГРАФИИ АЗЕРБАЙДЖАНА НА ОСНОВЕ ПИСЬМЕННЫХ ИСТОЧНИКОВ ХВ ВЕКА**

XV век ознаменовался большими географическими открытиями. Мировая история обогатилась сведениями, письменными источниками о новых землях, этносах и культурах. Стали расширяться торговые связи, прокладываться новые торговые пути, в особенности на Восток. В XV веке сухопутная дорога на восток шла по Волжскому речному пути, далее через Каспийское море и по суше через государства Передней и Южной Азии. Афанасий Никитин купец из Твери первым дошел до Индии сухопутным и морским путем за 30 лет до Васко де Гамы. Его путь прошел через Азербайджан и провинции Ирана. Он оставил сведения о Шемахе, Баку как крупных торговых центрах, о проведении траурной религиозной церемонии в Рее, о праздновании в Индии мусульманским населением праздников Рамазан и Курбан, Дневник Афанасия Никитина являются ценным источником для этнографической науки.

**RANA IBRAHIMOVA**

**WRITTEN WORKS OF THE XV CENTURY AS SOURCES OF RESEARCHES OF AZERBAIJAN ETHNOGRAPHY**

The article is dedicated to the research and investigation of ethnographic materials (information) in the works which come out in the XV century. In 1446-1472 Russian merchant Afanase Nikitin passed through Azerbaijan during his travel to India and described Shamakhi and Baku cities as big trade centers. Afanase Nikitin also described religious ceremony in the city Rey and celebration of holidays "Novruz" and "Ramadan" by Muslim population. Diary of Afanase Nikitin is a valuable ethnographic source.

***Rəyçilər: t.e.d.N.Quliyeva, t.e.d.Q.İsmayılzadə.***
***BDU Tarix fakültəsi Arxeologiya və Etnoqrafiya kafedrasının 08 dekabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №04).***